AZƏRBAYCAN www.azerbaijan-news.az

# Avstraliya Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyir

## *Milli Məclis nümayəndə heyətinin bu ölkəyə səfəri bunu bir daha təsdiq etdi*



*Azərbaycan nümayəndə heyətinin Avstraliyanın xarici işlər naziri Culia Bişopla görüşü*

Xarici siyasətdə hücum strategiyasını müəyyən edən Prezident İlham Əliyev həm də erməni yalanlarının ifşa edilməsini və dünya miqyasında yayılmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Bu baxımdan Avstraliya İttifaqının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyi cənab İlham Əliyevin elan etdiyi prioritetlərin uğurla reallaşmasının göstəricisi və Azərbaycan dövlətinin xarici siyasətinin mühüm nailiyyətlərindən biridir.

Azərbaycan Milli Məclisinin Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Xanlar Fətiyevin və Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin baş məsləhətçisi Teymur Tağıyevin bu günlərdə Avstraliya İttifaqına etdikləri səfər zamanı keçirdikləri görüşlərin, apardıqları danışıqların yekunları da göstərir ki, Avstraliya dövləti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağın qondarma rejimini tanımır. Ən əsası isə bu ölkə münaqişənin əsas şərti kimi Ermənistan tərəfindən işğal olunmuş ərazilərin azad olunmasını vacib sayır.

Avstraliya Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Belə ki, bu ölkə müstəqilliyimizi 1991-ci ilin dekabr ayında tanıyıb. 1992-ci ildən diplomatik münasibətlər qurulub. Amma buna baxmayaraq, iki ölkənin bir-birindən coğrafi baxımdan uzaq yerləşməsi səbəbindən siyasi-iqtisadi əlaqələr o qədər geniş deyil. Bununla belə, dünya siyasi arenasında öz dəst-xətti və yeri olan Avstraliya Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanın maraqlarına uyğun mövqe nümayiş etdirir. Səfər barədə qənaətlərini bölüşən Xanlar Fətiyev öncə bu faktı xüsusi vurğulayaraq qeyd etdi ki, Avstraliyanın məsələyə obyektiv və real yanaşması Qərb ölkələrində və beynəlxalq təşkilatlarda ikili standartların baş alıb getdiyi indiki məqam Ermənistanın ifşası baxımından olduqca əhəmiyyətlidir.

Avstraliyanın Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi ilə yanaşı, iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətində müzakirələr son dövrlərdə xeyli fəallaşıb. 2011-ci ildə Milli Məclisdə Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılıb, 2012-ci ildə Azərbaycanın bu ölkədə səfirliyi təsis edilib. 2013-cü ilin yanvar ayında Prezident İlham Əliyevin sərəncamı ilə Rövşən Cəmşidov Azərbaycanın Avstraliyada səfiri təyin edilib. Ötən ilin aprel ayında Xanlar Fətiyevin rəhbərliyi ilə Milli Məclisin nümayəndə heyəti Qərbi Avstraliya ştatının paytaxtı Pert şəhərində səfərdə olub. İyun ayında isə Avstraliya Parlamentinin Nümayəndələr Palatasının deputatları Lyuk Simpkins, Alan Qriffin və Con Kobbdan ibarət nümayəndə heyəti Azərbaycana səfər edib. Məhz bu səfərdən sonra Avstraliya parlamentində Avstraliya-Azərbaycan parlament qrupu yaradılıb. Qrupun rəhbəri təyin olunduğu üçün Avstraliya parlamentində çıxışı zamanı L.Simpkins deyib: “Paytaxt Bakı məndə xoş təəssürat doğurdu. Ölkənin özü kimi bu şəhər də demokratiyanın çox yaxşı nümunəsidir və burada müxtəlif dinlərə, etnik azlıqlara böyük hörmət var. Şübhəsiz ki, biz ölkənin yerləşdiyi coğrafi məkanı və nəticədə ortaya çıxan çağırışları da nəzərə almalıyıq. Belə şəraitdə Azərbaycanın demokratiyanı inkişaf etdirməsi, tolerant ölkə olması əslində regionun digər dövlətlərinə nümunədir. Azərbaycanda məscidləri, sinaqoqları, kilsələri yanaşı görmək çox xoşdur. Bu il Azərbaycan I Avropa Oyunlarına evsahibliyi etdi. Bir neçə il əvvəl isə “Eurovision” mahnı müsabiqəsi Bakıda keçirilib. Həmin tədbirlər Azərbaycanın sürətli inkişafının, beynəlxalq aləmə inteqrasiyasının təsdiqidir. Onları reallaşdırmaqla Azərbaycan möhtəşəm bir ölkə olaraq uğurlarını bütün dünya üçün nümayiş etdirdi və biz bu məsələləri etiraf etməliyik”.

Təbii ki, Avstraliya-Azərbaycan parlament qrupunun yaradılması iki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın və ümumilikdə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi baxımından mühümdür. Azərbaycan-Avstraliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tərəf müqabili kimi Avstraliya-Azərbaycan parlament qrupu da iki ölkə arasında siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə fəaliyyətə öz töhfəsini verməyi vəzifə olaraq müəyyənləşdirib və qısa müddətdə ikitərəfli münasibətlərin inkişafına, Azərbaycanın milli maraqlarına uyğun fəaliyyət ortaya qoyub. Belə ki, ötən ilin oktyabrında Azərbaycan Milli Məclisinə seçkiləri müşahidə etmək üçün L.Simpkinsin rəhbərliyi ilə Avstraliya nümayəndə heyəti Azərbaycana səfər edib. Səfər zamanı Prezident İlham Əliyev tərəfindən qəbul edilən və Bakıda görüşlər keçirən nümayəndə heyəti həmçinin Gəncədə məskunlaşan qaçqın və məcburi köçkünlərlə görüşüblər. Bu səfərdən sonra L.Simpkins Avstarliya parlamentində çıxışı zamanı bildirib ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini tərk etməlidir. O deyib ki, 1992-1993-cü illərdə Ermənistan qanunsuz olaraq Azərbaycan ərazisinin bir hissəsini işğal edib. Bu əraziyə Dağlıq Qarabağ regionu və ətraf yeddi rayon daxildir. Deputat bildirib ki, BMT bu faktları işğal kimi tanıyıb və Ermənistanın yaratmaq istədiyi qondarma qurumu qəbul etmir. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın işğalçılıq siyasəti ilə bağlı 4 qətnamə qəbul olunub. Mühüm məqam ondan ibarətdir ki, Avstraliya da qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımır. L.Simpkins həmçinin parlamentin diqqətini Dilqəm Əsgərovin, Şahbaz Quliyevin və Həsən Həsənovun əsir götürülməsinə çəkib. Qeyd edib ki, onlar öz doğma torpaqlarını, işğal olunmuş əraziləri ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb.

Avstraliya parlamenti noyabrın 30-da keçirilən iclasında isə L.Simpkins xarici işlər naziri Culia Bişopdan Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı ilə bağlı Avstraliya hökumətinin mövqeyini açıqlamağı xahiş edib. C.Bişop bildirib ki, Avstraliya hökuməti dünyada suveren ölkələrin ərazilərinin qeyri-qanuni işğalını mühakimə etmək siyasətinə sadiqdir və tamamilə buna uyğun olaraq Avstraliya hökuməti Azərbaycanın suverenliyini tanıyır, Dağlıq Qarabağı isə müstəqil dövlət kimi qəbul etmir. “Eyni zamanda, Avstraliya hökuməti problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətini dəstəkləyir. Bu, bizim ardıcıl mövqeyimizdir. Biz Ermənistan və Azərbaycan hökumətlərini bir araya gələrək münaqişəyə və Dağlıq Qarabağın işğalına sülh yolu ilə son qoymağa çağırırıq” - deyə C.Bişop diqqətə çatdırıb.

Xanlar Fətiyevin sözlərinə görə, Avstraliya parlamentində dostluq qrupunun yaradılması, L.Simpkinsin çıxışları, xarici işlər naziri C.Bişopun açıqlaması ölkəmizi Avstraliya ictimaiyyətinə bir daha tanıdıb. Nümayəndə heyətimizin Avstraliyaya son səfəri isə həm Azərbaycan həqiqətlərinin bu ölkədə yayılmasına, həm də ikitərəfli əlaqələrin genişləndirilməsi perspektivinə öz töhfəsini verib. Səfər günləri Xocalı soyqırımının 24-cü ildönümünə təsadüf edib. Fevralın 23-də Qərbi Avstraliya Parlamentinin sədri cənab Maykl Sazerlend ilə görüşdə X.Fətiyev Ermənistanın Azərbaycana qarşı təcavüzü və Xocalı faciəsi haqqında ətraflı məlumat verib. Fevralın 26-da isə L.Simpkinsin təşkilatçılığı ilə Qərbi Avstraliya Parlamentində Xocalı faciəsinə həsr edilmiş anım mərasimi keçirilib. Tədbirdə Avstraliya Parlamentinin üzvləri, Avstraliya-Azərbaycan Dostluq Assosiasiyasının üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Həmin gün Xocalı soyqırımı haqqında ictimaiyyətə dolğun məlumatları çatdırmaq məqsədilə Pert şəhərində fəaliyyət göstərən Qərbi Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri Con Hammondun və Azərbaycan icmasının nümayəndəsi Aydan Rzayevanın təşkilatçılığı ilə Hilton mehmanxanasında geniş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Con Hammond Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı barədə məlumat verib. O, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” kampaniyasının faciənin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rolunu qeyd edib. L.Simpkins isə Xocalı faciəsinin indiyə qədər dünya miqyasında müvafiq hüquqi və siyasi qiymət almamasından təəssüf etdiyini bildirib. Milli Məclisin Azərbaycan-Avstraliya parlamentlərarası işçi qrupunun rəhbəri X.Fətiyev çıxışında Xocalı faciəsinin ağır nəticələri haqqında məlumat verib, Azərbaycan xalqının Ermənistan tərəfindən işğalçılıq və etnik təmizləmə siyasətinə məruz qaldığını, ölkəmizin 20 faiz ərazisinin zəbt olunduğunu və bir milyondan artıq soydaşımızın doğma yurdlarından didərgin salındıqlarını xatırladıb.

Azərbaycan nümayəndə heyətinin Avstraliyaya səfəri zamanı əsas müzakirə mövzularından biri də iqtisadi əlaqələrin genişləndirilməsi məsələsi olub. Etiraf edilməlidir ki, iqtisadi əlaqələrin hazırkı səviyyəsi iki ölkənin potensialına adekvat deyil. Düzdür, Azərbaycan Dövlət Neft Fondu tərəfindən Avstraliyada qiymətli kağızlar bazarına investisiya qoyulub, TANAP layihəsində quraşdırma, təchizat və tikinti işlərinə nəzarət Avstraliyanın “Vorley Parsons” şirkətinə həvalə olunub. Həmçinin ötən il I Avropa Oyunlarının təşkili üçün texniki infrastruktur işlərinə Avstraliyanın “TRİA” və “Big Great Event” şirkətləri cəlb edilmişdilər. Amma bunlar iki ölkə arasındakı mümkün iqtisadi əməkdaşlığa uyğun deyil. Ona görə nümayəndə heyətinin Qərbi Avstraliya Hökumətinin Beynəlxalq Ticarət və Regional İnvestisiyalar İdarəsinin rəhbəri Con Şut ilə görüşündə ölkənin ən böyük regionu olan Qərbi Avstraliyanın iqtisadi imkanları haqqında geniş təqdimat keçirilib. Təqdimat zamanı bildirilmişdir ki, Qərbi Avstraliya ölkə iqtisadiyyatının 45 faizini təşkil edir və əməkdaşlıq üçün burada geniş imkanlar mövcuddur. Xüsusən kənd təsərrüfatı sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasının hər iki ölkə üçün faydalı ola biləcəyi vurğulanıb. Avstraliya İttifaqı Baş nazirinin müavini Barnabi Coysla görüşdə də iki ölkə arasında neft-qaz, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. B.Coys Azərbaycan şirkətlərinin Avstraliya bazarına cəlb olunmasının hər iki tərəf üçün faydalı ola biləcəyini diqqətə çatdırıb, ölkələrimizin iqtisadi durumu və mövcud potensialı haqqında iş adamlarının məlumatlandırılması məqsədilə biznes forumlarının keçirilməsinin böyük əhəmiyyəti olduğunu qeyd edib.

Avstraliyanın multikulturalizm işləri üzrə nazir müavini, parlamentin üzvü Kreyq Londi isə Azərbaycanın bir müsəlman ölkəsi kimi tolerant siyasəti, sabit və davamlı inkişafa malik iqtisadiyyatı sayəsində digər ölkələr üçün örnək olduğunu vurğulayıb. O, Azərbaycanı böyük maraqla izlədiyini, ölkəmizdə bütün din və konfessiya nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamasından məlumatlı olduğunu və gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirib. Xanlar Fətiyev Azərbaycanda tolerantlıq, mədəniyyətlərarası dialoq və multikulturalizm siyasətinin dövlət səviyyəsində həyata keçirildiyini bildirib. Qeyd edib ki, Azərbaycanda müxtəlif dinlərin və milli azlıqların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları göz önündədir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi ölkəmizdə bu sahədə uğurlu dövlət siyasətinin həyata keçirilməsindən xəbər verir.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Avstraliyanın xarici işlər naziri C.Bişopla görüşüb. Görüş zamanı C.Bişop parlamentdə çıxışında Azərbaycan ərazilərinin işğalına son qoyulması barədə səsləndirdiyi fikirləri xatırladaraq dövlətin bu mövqeyinin qəti və dəyişməz qaldığını vurğulayıb, Avstraliya XİN-in rəsmi internet səhifəsində ölkə vətəndaşlarının Dağlıq Qarabağ və digər işğal olunmuş ətraf ərazilərə səfər etmələri haqqında müraciət dərc olunduğunu qeyd edib. Həmçinin C.Bişop Azərbaycan və Avstraliya arasında əməkdaşlığın inkişafı üçün böyük potensialın mövcudluğunu, energetika, kənd təsərrüfatı, təbii sərvətlərin hasilatı, idman, mədəniyyət və digər sahələrdə böyük maraq olduğunu diqqətə çatdırıb. Nazir beynəlxalq idman tədbirlərinin keçirilməsində Azərbaycan rəhbərliyinin uğurlu səylərini təqdir edib. C.Bişop Avstraliya və Azərbaycan parlamentləri arasında əlaqələrin son illər sürətlə inkişaf etdiyini, Azərbaycanın Avstraliyadakı səfirliyinin ölkələrimizin yaxınlaşması istiqamətində fəaliyyətini xüsusilə vurğulayıb. X.Fətiyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Avstraliya dövlətinin ədalətli mövqeyinə görə təşəkkürünü bildirib və C.Bişopun Azərbaycana rəsmi səfərə dəvət olunduğunu qeyd edib. Söhbət zamanı Azərbaycanın və Avstraliyanın parlamentlərarası dostluq qrupları arasında əməkdaşlığı, ticari-iqtisadi əlaqələrin genişləndirilməsi, sərmayələrin cəlb edilməsi və iş adamlarının birbaşa əlaqələrinin yaradılmasına dəstək göstərilməsi kimi məsələlər ətrafında müzakirələr aparılıb.

Göründüyü kimi, Azərbaycan-Avstraliya münasibətlərində yeni mərhələ başlayır. Əsas məqam isə ondan ibarətdir ki, hər iki tərəfdə əlaqələrin inkişafı üçün güclü siyasi iradə mövcuddur.

**Rəşad CƏFƏRLİ,**
**“Azərbaycan”**